# Özü tənzimlənən atəşkəs

## Oksana Antonenko

On ildən artıqdır ki, münaqişənin bütün tərəfləri sülhməramlı və ya daimi monitorinq qüvvələri olmadan Azərbaycanı *de fakto* Ermənistanın nəzarət etdiyi Dağlıq Qarabağla ayıran atəşkəs xəttini və ya təmas xəttini (TX) gözləyirlər. Atəşkəs sazişinin öz-özünü tənzimləməsi Dağlıq Qarabağ münaqişəsinin səciyyəvi aspektidir. Kəşmir və Kipr münaqişələri kimi siyasi tənzimləmə tapmamış digər münaqişələrdə kənar qüvvə (bu hallarda, BMT) atəşkəsi qoruyur və bəzi hallarda tərəfləri atəşkəsə riayət etməyə məcbur edir. Keçmiş Sovet İttifaqı respublikalarına gəldikdə, Rusiya, Gürcüstan və Cənubi Osetiya bölmələrindən ibarət birgə sülhməramlı qüvvələr Cənubi Osetiyada atəşkəs sazişinə əməl olunmasını təmin edirlər. Abxaziya və Dnestryanıda sülhməramlı qoşunlar Müstəqil Dövlətlər Birliyinin (MDB) mandatı ilə yerləşdirilib.

Atəşkəs pozuntularının az sayda olması, nisbətən kiçik itkilər (təqribən 200 ölən və yaralılar) və təmas xəttindən kənarda hərbi eskalasiya hallarının olmamağı belə bir özünü tənzimləyən sistemin misilsiz uğuruna dəlalət edir. Bəzi ekspertlər hesab edirlər ki, atəşkəsin gözlənilməsi tərəflərin mövcud hərbi balansı ilə bağlıdır. Belə bir tarazlıq vəziyyətində yeni qarşıdurma yer alarsa, tərəflərin heç biri öz qələbəsində əmin ola bilməz. Eyni zamanda uzunmüddətli perspektivdə münaqişənin siyasi həllinə doğru irəliləyiş olmadıqda belə vəziyyətin nə qədər çəkəcəyini söyləmək çətindir.

Rusiyanın vasitəçiliyi ilə əldə edilmiş Ermənistanla Azərbaycan arasında atəşkəs 1994-cü ilin 4-5 mayında MDB-nin parlamentlərarası assambleyası, Qırğızıstan parlamenti və Rusiya Federasiyasının Federasiya Yığıncağı və Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə Bişkekdə hazırlandı və 11-12 may tarixində qüvvəyə mindi. Bununla belə, vasitəçilər və münaqişə tərəfləri sülhməramlı qüvvələrin tərkibi səbəbindən onların yerləşdirilməsi barədə razılığa gələ bilmədilər. Azərbaycan tərəfi bu qüvvələrin tərkibində Rusiya sülhməramlılarının iştirakını qəbul etmirdi, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) isə beynəlxalq sülhməramlı qüvvələrini yığmaq üçün mexanizmi yox idi. Bundan əlavə, Qərb dövlətlərinin orduları həmin zaman Bosniya münaqişəsinin həlli ilə məşğul idilər.

5-6 dekabr 1995-ci il tarixində ATƏM-in Budapeşt sammitində Dağlıq Qarabağda beynəlxalq sülhməramlı qüvvələrin yerləşdirilməsi prinsipi razılaşdırıldı. ATƏM-in təklifinə əsasən, bu qüvvələr 3.000 əsgərdən ibarət olmalı idi, bundan savayı hər ölkənin hərbi kontingenti 30 faizdən artıq olmamalı idi. Budapeşt sammitindən sonra (sonradan ATƏT adlanan) ATƏM Yüksək Səviyyəli Planlaşdırma Qrupunu (YSPQ) yaratdı və bu Qrupun mandatına ATƏT-in sülhməramlılarının yerləşdirilməsi üzrə tövsiyələrin işlənib hazırlanması daxil edildi. Eyni zamanda, YSPQ sənədi sülhməramlı qüvvələrin münaqişə bölgəsində yerləşdirilməsini siyasi tənzimləmə prosesindən asılı etdi. Başqa sözlə, siyasi nizamlama sahəsində irəliləyiş olmadan sülhməramlı qüvvələr bölgəyə yeridilməyəcək.

Təmas xətti boyunca beynəlxalq qüvvələr yerləşdirilmədiyindən, atəşkəsin monitorinqi və təmas xəttinə nəzarət müntəzəm olaraq ATƏT-in müşahidəçiləri tərəfindən aparılır. Adətən belə səfərlər zamanı təmas xəttin hər iki tərəfdən - həm Azərbaycan, həm də Ermənistandan təftiş edilir və bu səfərlər barədə tərəflərə əvvəlcədən məlumat verilir. Keçmişdə bu yoxlamalara neytral zolağın və ya dəhlizin minalardan təmizlənməsindən sonra təmas xəttinin rəmzi keçilməsi də daxil idi. Lakin bu praktika mina partlayışı hadisəsindən sonra dayandırıldı. Bu cür sistem müşahidəçilərin daimi nəzarətini və ya gözlənilməzlik amilini nəzərdə tutmur. Bu sistemə həmçinin təmas xəttində qarşı-qarşıya duran qüvvələr arasında etibarın artırılması üçün heç bir tədbir daxil deyil. Qeyd etmək lazımdır ki, siyasi tənzimləmə olmadığından bu qarşı-qarşıya duran qoşunlar arasında dəqiq güc tətbiq etmə qaydaları müəyyən edilməyib. Yaranan vəziyyətin nəticəsində Dağlıq Qarabağın *de fakto* hakimiyyəti və Azərbaycan hökuməti hərbi hazırlığı yüksək səviyyədə saxlamağa, atəşkəs xətti boyunca səngərlər sistemini və digər müdafiə qurğularını təmin etməyə məcburdurlar. Eyni zamanda tərəflər bir sıra tədbirlərin həyata keçirilməsini müzakirə edilmişdir: bunlara hər iki tərəfin qoşun komandanlıqları arasında birbaşa rabitə əlaqəsi, taun xəstəliyinin profilaktikası sahəsində qarşılıqlı faydalı əməkdaşlıq və qeyri-strateji mina sahələri barəsində məlumat mübadiləsi daxildir.

Əgər siyasi nizamlamaya nail olunarsa, ATƏT-in qərarı ilə sülhməramlı qüvvələrin yeridilməsi məsələsi yenə gündəmə gələ bilər. Belə vəziyyətdə sülhməramlıların mandatına münaqişə tərəfləri arasında atəşkəsin gözlənilməsindən daha çox insanların təhlükəsiz gediş-gəlişinə köməklik, hər hansı tərksilah variantının icrasına nəzarət, etimadın gücləndirilməsi ilə bağlı tədbirlərin tətbiqi və ola bilsin ki, qaçqınların qayıtması prosesinə yardım vəzifələri daxil edilə bilər. Bununla belə, gələcək sülhməramlıların tərkibi və silahdan istifadə qaydaları ilə bağlı köhnə ixtilaflar qalmaqdadır. Erməni tərəfi təmas xətti boyunca Rusiya sülhməramlılarından ibarət kontingentin yerləşdirilməsinin tərəfdarıdır, Azərbaycan tərəfi isə bütün münaqişə bölgəsində daha çoxsaylı beynəlxalq kontingentin yerləşdirilməsi ideyasını dəstəkləyir və hesab edir ki, bu kontingentin geniş mandatına qaçqınların qayıtması prosesinə yardımın göstərilməsi daxil edilməlidir. Hələlik isə, mövcud sistemin effektivliyini xəbərdarlıq etmədən müfəttişləri bölgəyə göndərməklə və tərəflər arasında etimadın artırılması ilə bağlı müəyyən tədbirləri həyata keçirməklə artırmaq olar.

**Oksana Antonenko Londonda yerləşən Beynəlxalq Strateji Tədqiqatlar İnstitutunda baş elmi işçi və Rusiya və Avrasiya proqramları direktoru kimi çalışır.**